# AZƏRBAYCANA GƏTİRİLMİŞ YAKLARIN İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ YETİŞDİRİLMƏSİ

**Yusif Əbdüləzimov, Şəbnəm Abdullayeva**

*AR KTN Heyvandarlıq Elmi Tədqiqat İnstitutu, Göygöl rayonu*
*yusif_ebdulezimov@mail.ru, sebnem.abdullayeva106@mail.ru*

Respublikamızda heyvandarlığın inkişaf etdirilməsi üçün müxtəlif təbii iqlim şəraiti mövcutdur. Mövcud iqlim şəraitlərindən əsasən, dağlıq və dağətəyi bölgələrdə heyvandarlığın inkişaf etdirilməsi əhalinin heyvandarlıq məhsullarına olan tələbatının ödənilməsində əsas rol oynaya bilər.

Laçın və Kəlbəcər rayonlarının dağlıq zonalarında uzun illər istifadəsiz qalmış ot örtüyü var. Belə bir şəraitdə Yak növlü iribuynuzlu heyvanların yetişdirilməsi əhəmiyyətlidir. Bu məqsədlə, 2022-ci ilin payızında ölkəmizə Qırğızıstan Respublikasından 100 baş yak növlü iribuynuzlu heyvan gətirilmişdir. Yaklar gətirilməzdən əvvəl Qırğızıstan ekspertlərinin iştirakı ilə Laçın və Kəlbəcər rayonlarının ərazilərində monitorinqlər keçirilərək ərazilər seçilmiş və həmin heyvanların orada yerləşdirilməsi təmin edilmişdir.

**Yak *(lat. Bos grunniens)*** - iribuynuzlu heyvan növüdür. Yakların əsas xüsusiyyətlərindən biri xüsusi yem norması olmadan təbii otlaq sahəsində yetişdirilməsidir. Yakların qoxu bilmə hissləri digər heyvanlardan fərqli olaraq daha yaxşı inkişaf edib. Çox çevik və nazik dodaqlar onlara hətta ən soyuq qışda normal yem axtarmaq imkanı verir. Bu səbəbdən yaklar qar altında olan (10-20 sm dərinlikdə) bitkiləri hiss etməklə onları çox asanlıqla mənimsəyir.

Yak mənşəcə iribuynuzlu mal-qaraya yaxın yüksək dağ heyvanıdır. Yaklar vəhşi halda dəniz səviyyəsindən 4500-6000 metr yüksəklikdə yerləşən Tibet dağlarında məskunlaşmışlar. Ev təsərrüfatında saxlanan yaklar əsasən Hindistan, Çin, Altay, Buryat-Monqol, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Tacikistanda yayılmışlar. Yak 25 ilə qədər yaşaya bilir. Onlar həmçinin dəniz səviyyəsindən 1500 metr və daha aşağı yüksəklikdə yerləşən ərazilərdə də iqlimə asanlıqla adaptasiya oluna bilirlər.

Yakların yüksək dağlıq zonalarda yaşamasına və oksigenin səviyyəsinin nisbətən aşağı olduğu mühitə uyğunlaşmasına imkan verən bir çox anatomik və fizioloji xüsusiyyətləri var. Bu xüsusiyyətlərə yüksək metabolizm, hissetmənin güclü olması, ürək və ağciyər həcmlərinin genişliyi daxildir. Bu da, yakların daha tez-tez nəfəs almalarına imkan yaradır. Nəticədə, yaklar yorulmadan yem axtarışı üçün daha uzaq məsafə qət edə bilirlər.

Yakların bioloji adaptasiyası bir çox nəsillərin ömrü boyu dəyişilən mühit şəraitinə uyğunlaşmasıdır. Orqanizmin mühitə uyğunlaşması dəyişkənlik, irsiyyət və təbii seçmənin təsiri nəticəsində daim dəyişən və inkişaf edən bir proses kimi başa düşülməlidir. Yaşayış şəraitinin dəyişilməsinə cavab olaraq orqanizmin qeyri-irsi adaptiv reaksiyaları təkamül-tarixi aspektdə adaptasiyanın nəticəsidir. Quruluş formalarının adaptivliyi hər bir orqanizmin sağ qalmasını təmin edir, onun çoxalma əmsalını artırır, ölmə əmsalını azaldır. Heyvan orqanizmlərinin morfofizioloji quruluşu onların mövcud mühitə uyğunlaşmasını göstərir.

Yaklar özünəməxsus bədən quruluşuna malikdir. Onların aşağıya doğru uzanan iri, ağır başı var, boynu qısadır, bəzilərinin aralı məsafədə yerləşən iri buynuzları var, cidov nahiyyəsində hürgüc var, döşü enli və dərin, kürəyi möhkəm, arxa hissəsi azacıq sallaq, ayaqları düz, gödək, möhkəm dırnaqlıdır. Bəzi erkək yaklarda cidov hündürlüyü 135 sm-ə çatır, axtalanmış yaklarda isə daha hündür olur.

Yakların çoxu buynuzsuz heyvanlardır. Onların maraqlı xüsusiyyətlərindən biri iribuynuzlu mal-qaradan fərqli olaraq, artıq qabırğaya malik olmalarıdır. Yaklar əsasən 14, bəzən də 15 cüt qabırğalı olur. Yakların baş, bədən və ətraflarının başlanğıcı cox böyük olur. Gövdələrinin aşağı hissəsində uzun saçaq şəklində aşağıya doğru sallanan sıx tükləri var, bu da yakları qışda qarın üzərində və donmuş torpaqda uzandıqları zaman soyuqdan qoruyan, özünəməxsus qoruyucu döşənək-yastıq yaradır.

Yaklar gecyetişkəndir. Onlarda 1,5-2 yaşlarında cinsi yetişkənlik başlayır, 6-7 yaşlarında isə dayanır. Onların rəngləri müxtəlif olur. Əsasən bel hissəsində açıq xəttli qara, həmçinin müxtəlif qəhvəyi çalarlarda yaklara cox rast gəlinir, ağımtıl və ağ yaklara isə daha az rast gəlinir. Saxlanma yerindən asılı olaraq cavanların dişiləri 360-420 kq, erkəkləri isə 450-550 kq canlı kütlədə olurlar. Ət kəsim çıxarı erkək və dişilərdə 46-48%, axtalanmış heyvanlarda isə köklük dərəcəsindən asılı olaraq 50-52% olur. Hər il yaşlı yaklardan 3-4 kq yun alınır ki, bunun da yarısından coxu tiftikdən ibarət olur. Ondan yun parçalar və digər qiymətli məhsullar hazırlamaq mümkündür. İribuynuzlu qaramal ilə müqayisədə Yakların dərisi nisbətən ağır və qalın, lakin boş olur.

Yaklar arasında həvəsə gəlmə payızdan erkən başlayır. Boğazlıq dövrü 257 gün, yəni 8,5 aydır. Doğum yaz mövsümündə başlayır. Yeni doğulan yak dərhal ayağa qalxır. Soyuq havalar düşənə qədər heyvanın güc qazanmaq və böyümək üçün vaxtı olur. Balalar həyatının ilk ilini soyuq olan havada anasının uzun tükləri altında keçirir. Yak doğulduqda 15-17 kq ağırlığında olur. Bir ildən sonra, körpə 10 dəfə canlı kütləsini artırır və tezliklə buynuzları əmələ gəlir.

Yakların süd məhsuldarlığı adətən aşağıdır və 550-600 kq olur. Ancaq yaxşı yemləmə və saxlama şəraitində yakların süd məhsuldarlığı 750-850 kq və daha çox olur. Südünün yağlılığı 9%-dir, südü yağlı, əti dadlı olmaqla müalicəvidir. Ət çıxımına və ətinin keyfiyyətinə görə bu heyvanların yetişdirilməsi iqtisadi cəhətdən səmərəlidir. Bala yak ana südü ilə yalnız həyatının ilk ayı ərzində qidalanır, sonra isə tədricən otlamağa başlayır.

Nəzərə alsaq ki, 30 il ərzində işğal altında qalmış Qarabağ bölgəsinin faunasının itmək təhlükəsi yaranmışdır. Ona görədə bu heyvanların o zonada yetişdirilməsi və təbii şəraitdə artırılması həmin zonaların faunasının zənginliyinə müsbət təsir edəcəkdir.